# 20 Yanvar faciəsi dünya mətbuatında








## Cənubi Koreya

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı Cənubi Koreyanın "Diplomacy Journal", "Seoul City News", "Korea News Plus" və "Naewoeilbo" xəbər saytlarında məqalələr dərc edilib.

Məqalələrdə 20 Yanvar hadisələrinin mahiyyəti və nəticələri, Ümummilli Lider Heydər Əliyevin 20 Yanvar hadisələrinin ictimailəşdirilməsi və ona siyasi-hüquqi qiymət verilməsi üçün səylərindən söz açılıb. Qeyd olunub ki, sovet qoşunlarının dinc sakinlərin üzərinə yeridilməsi nəticəsində 147 nəfər qətlə yetirilib, 744 nəfər yaralanıb, 4 nəfər itkin düşüb. 20 Yanvar hadisələri Azərbaycanın müstəqillik və azadlıq mübarizəsinə önəmli tarix kimi düşüb.

Yazılarda Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam olaraq bərpa etməsi barədə də məlumat verilib.

## Mərakeş

Mərakeşin "Hurrapress", "əl-İlami" və fransızdilli "L'Opinion" elektron nəşrlərində mərakeşli jurnalist Şueyb Brhaddanın 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı məqaləsi dərc olunub.

"20 Yanvar - Azərbaycan dövlətinin azadlıq və suverenlik günəşinin doğulduğu qanlı gün" sərlövhəli məqalədə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet imperiyasının hərbi qüvvələrinin Azərbaycanda törətdiyi tarixi cinayətdən bəhs olunur.

Müəllif bəşəri dəyərlərə qarşı cinayət olan, günahsız insanların qətli ilə nəticələnən bu faciənin əsl səbəblərinə toxunur, bu hadisənin Azərbaycan xalqının taleyində suverenlik və azadlıq arzularının reallığa çevrilməsində dönüş nöqtəsi olduğunu qeyd edir.

Məqalədə diqqətə çatdırılır ki, Qara Yanvar Azərbaycan üçün təkcə tarixi hadisə deyil, həm də ədalətsizliyə qarşı müqavimət və milli birlik anıdır. Şübhəsiz ki, 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanın tarixində və milli kimliyində silinməz iz qoymuşdur.

Məqalədə həmçinin vurğulanır ki, Qara Yanvar Azərbaycan xalqının kollektiv yaddaşına əbədi həkk olunaraq azadlıq və ədalət uğrunda göstərilən fədakarlıqları xatırladacaq.

## İordaniya

İordaniyanın "Petra" Dövlət İnformasiya Agentliyinin internet səhifəsində, ölkənin gündəlik əsasda çıxan və ən çox oxunan "Əd-Dustur" və "Ər-Rəy" qəzetlərində, eləcə də geniş oxucu kütləsinə malik "Ammon News", "Saraya News", "Jordanzad" və "Nayrouz" xəbər portallarında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı məqalələr dərc olunub.

"Azərbaycan 1990-cı il 20 Yanvar faciəsinin 35-ci ildönümünü qeyd edir" sərlövhəli məqalədə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş sovet imperiyasının hərbi qüvvələrinin Azərbaycanda törətdiyi tarixi cinayətdən bəhs olunur. Bu faciənin bəşəri dəyərlərə qarşı cinayət olduğu, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar hadisələri zamanı Azərbaycana ağır mənəvi və xeyli maddi zərər vurulduğu, xalqın bütün hüquqları pozulduğu qeyd olunub.

Məqalədə həmçinin 20 Yanvar faciəsinin Azərbaycan xalqının yaddaşında hüzn və kədər, eyni zamanda qürur və qəhrəmanlıq səhifəsi kimi həkk olunduğu bildirilib.

Vurğulanır ki, hər il 20 Yanvar faciəsinin ildönümündə Azərbaycan xalqı şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir, Şəhidlər xiyabanına gələrək qəhrəman Vətən övladlarının məzarları üzərinə güllər düzür, onların azadlıq mübarizəsindəki rolunu minnətdarlıq hissləri ilə xatırlayırlar.

Bundan əlavə, məqalədə Azərbaycan-İordaniya münasibətlərinin son dövrlərdə yüksək xətlə inkişaf etdiyi barədə məlumat əks olunub.

## İran

Təbrizin "Nəsr" qəzetində 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar geniş məqalə dərc edilib.

Azərbaycanın Təbrizdəki baş konsulluğundan bildirilib ki, məqalədə bu dəhşətli faciənin ölkəmizdə Ümumxalq Hüzn Günü kimi qeyd olunduğu diqqətə çatdırılıb.

Təbriz ictimaiyyətinə 1990-cı il yanvarın 20-də sovet qoşun hissələrinin paytaxt Bakıda və Azərbaycanın digər şəhərlərində dinc əhaliyə divan tutması, torpaqlarının müdafiəsi və müstəqilliyi uğrunda mübarizəyə qalxan dinc insanları vəhşicəsinə qətlə yetirməsi barədə müfəssəl məlumat verilib.

Məqalədə vurğulanıb ki, həmin ağır günlərdə özünün və ailə üzvlərinin həyatını təhlükəyə atan Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək kommunist rejiminin Azərbaycanda törətdiyi qanlı aksiyanı qətiyyətlə pisləyib, günahsız insanların qətlə yetirilməsinə etirazını bildirib və törədilmiş cinayətə görə məsuliyyət daşıyanların cəzalandırılmasını tələb edib. O, faciəni törədənləri, şəxsən Mixail Qorbaçovu kəskin ittiham edib, qoşunların Bakıdan dərhal çıxarılması tələbini irəli sürüb. "Ulu Öndərin tarixi bəyanatı həm də Moskvada, imperiyanın mərkəzində 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymət idi. Görkəmli dövlət xadimi Heydər Əliyevin səsləndirdiyi bəyanat qanlı hadisələr haqqında obyektiv reallığın dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılmış ən ciddi addım olmaqla yanaşı, həm də Azərbaycanın zor gücünə salındığı informasiya blokadasının yarılması və dağıdılması baxımından misilsiz əhəmiyyətə malik hadisə oldu. Məhz Ulu Öndərin siyasi iradəsi sayəsində 20 Yanvar hadisələri öz hüquqi və siyasi qiymətini aldı. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi", - deyə yazıda bildirilib.

Məqalədə əlavə olunub ki, xalqın çağırışı ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldılıb və onun 17 yanvar 2000-ci il tarixli sərəncamı ilə faciə qurbanlarına "20 Yanvar şəhidi" adı verilib. Eyni zamanda Ümummilli Liderin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da parlament "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edib. Beləliklə, 20 Yanvar faciəsi məhz Ulu Öndər Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz siyasi-hüquqi qiymətini alıb".

## İtaliya

İtaliyanın katolik icmasına məxsus "Faro di Roma" qəzetində 20 Yanvar faciəsi ilə əlaqədar məqalə dərc olunub.

Yazıda 35 il əvvəl baş vermiş 20 Yanvar hadisələrinin müasir Azərbaycanın müstəqilliyinə gedən yolda xüsusi əhəmiyyət kəsb etdiyi bildirilir. Qeyd olunur ki, Sovet İttifaqı rəhbərliyinin ayrı-seçkilik siyasəti və ölkəmizin Qarabağ bölgəsində yaşayan yüzminlərlə azərbaycanlının evlərini tərk etmək məcburiyyətində qalması Azərbaycan xalqının başlatdığı kütləvi etiraz aksiyalarının və milli azadlıq hərəkatının əsasını təşkil edib. Keçmiş SSRİ rəhbəri Mixail Qorbaçovun bilavasitə əmri ilə sovet ordusunun xüsusi təyinatlı dəstələri və daxili qoşunlarının böyük kontingenti 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıya və Azərbaycanın bir sıra rayonlarına yeridilib. Sovet hərbi hissələri 147 dinc sakini qətlə yetirib, 744 günahsız insan yaralanıb, bu qətliam Azərbaycan tarixinə Qara Yanvar kimi düşüb.

Vurğulanır ki, dinc əhaliyə qarşı törədilən bu kütləvi qırğınlar BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və digər beynəlxalq hüquqi sənədlərin, konvensiyaların tələblərinin pozulması faktıdır. Bu faciədən dərhal sonra - yanvarın 21-də həyatını təhlükə qarşısında qoyan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək qanlı faciənin təşkilatçılarını cəsarətlə ittiham edərək xalqa bağlılığını əməli şəkildə göstərib. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən xüsusi qərarın qəbul edilməsi ilə xalqımızın məruz qaldığı dəhşətli faciəyə rəsmi olaraq siyasi-hüquqi qiymət verilib.

Diqqətə çatdırılır ki, 20 Yanvar hadisələri Azərbaycanın müstəqilliyinə gedən yolun başlanğıcı hesab olunur. 2020-ci ildəki Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatından sonra öz suverenliyini bərpa edən Azərbaycanda sülhün bərqərar olması üçün canlarından keçmiş şəhidlərin xatirəsi daim anılır.

❖❖❖

"Giornale Diplomatico", "Kmetro0", "Scenari Internazionali", "Aska News", "Gazzetta Matin", "Agenzia Nova", "Opinio Juris" kimi saytların yaydığı materiallarda da 20 Yanvar tarixinin hər il Azərbaycanda Ümumxalq Hüzn Günü kimi qeyd olunduğu bildirilir.

Yazılarda qeyd edilir ki, Azərbaycan xalqının milli azadlıq ruhunun, müstəqillik arzusunun qarşısının alınması məqsədilə keçmiş SSRİ qoşunları 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə mülki əhaliyə qarşı amansızcasına qətliam törədib. Bakıda və ölkənin digər bir neçə rayon və şəhərlərində törədilmiş bu ağır cinayət nəticəsində 147 nəfər dinc sakin öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz olaraq həbs edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu ağır cinayətin SSRİ rəhbərliyi tərəfindən törədildiyini dünya ictimaiyyətinə çatdırıb, Ulu Öndər sayəsində 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilib.

Vurğulanır ki, Azərbaycan beynəlxalq cinayətlərin ən ağır növlərindən biri olan insanlıq əleyhinə cinayət kimi 20 Yanvar hadisələrinin tövsif edilməsini və bu cinayətləri törətmiş hərbi qulluqçularla yanaşı, onların icrasına əmr verən şəxslərin də cinayət məsuliyyətinə cəlb olunmasını təmin etmək üçün beynəlxalq təşkilatları və dünya ictimaiyyətini ədalətli mövqe nümayiş etdirməyə çağırır.

Materiallarda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin və Xarici İşlər Nazirliyinin 20 Yanvar faciəsi ilə bağlı yaydığı bəyanatlardan fikirlərə yer verilib.

## İraq

İraqın "əl-Dustur" qəzetində iraqlı alim doktor Mutəzz Muhi Əbdülhəmidin 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı məqaləsi dərc olunub.

"20 Yanvar faciəsi Azərbaycanın yeni tarixində fəxr və şücaət səhifələrindəndir" sərlövhəli məqalədə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet imperiyasının hərbi qüvvələrinin Azərbaycanda törətdiyi tarixi cinayətdən bəhs olunur.

Müəllif qeyd edir ki, millətlərin və xalqların tarixində qara hərflərlə həkk olunmuş çoxlu fəlakət və faciə vardır. Lakin sovet qüvvələri tərəfindən törədilmiş Bakı qətliamı xarakteri və hədəfləri ilə başqalarından fərqlənir. Bu hadisə zamanı çox sayda günahsız mülki şəxs qətlə yetirilib, qırğınlar baş verib.

Məqalədə diqqətə çatdırılır ki, həmin günün sübh çağı Bakının küçələrində xalqın oğul və qızlarının, günahsız uşaqlarının qanı axırdı. Bu, sovet rəhbərliyinin ümidsiz cəhdi, dağılmaq və məhv olmaq ərəfəsində olan Sovet İttifaqının bütövlüyünü qoruyub saxlamaq üçün atılan amansız bir addım idi. Lakin Azərbaycan xalqına qarşı göstərilən ifrat qəddarlıq, sovet rəhbərliyinin, xüsusilə Mixail Qorbaçovun gözləntilərinə uyğun nəticə vermədi. Əksinə, bu hadisələr xalqın müstəqillik və azadlıq uğrunda iradəsini və qətiyyətini daha da gücləndirdi və onu totalitar Sovet İttifaqından kənarda azad bir dövlət qurmağa sövq etdi.

Məqalədə həmçinin vurğulanır ki, Azərbaycan Respublikası qarşılaşdığı faciə və müsibətlərə baxmayaraq, daim sülhsevər siyasət yürüdüb. Qısa müddət ərzində siyasi plüralizmə əsaslanan demokratik sistem qurmağa, azad bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməyə və hüquqi, sivil dövlət yaratmağa nail olub.

Müəllif qeyd edir ki, son illərdə Azərbaycan öz ordusunun gücü ilə torpaqlarını işğaldan azad edən azsaylı dövlətlərdən biri kimi nümunə göstərib.

## Moldova

Moldovanın "Noi.md" portalı 1990-cı ilin faciəli yanvar hadisələrinin 35-ci ildönümünə məqalə həsr edib.

"Azərbaycanlılar öz ölkələrinin faciəli tarixinin 35-ci ildönümünü qeyd edirlər" sərlövhəli məqalədə sovet hərbi maşınının dinc əhaliyə qarşı vəhşicəsinə hərəkətləri barədə məlumat verilir. Qeyd olunur ki, rəsmi məlumatlara görə, 147 nəfər həlak olub, 744 nəfər yaralanıb, dörd nəfər isə itkin düşüb.

"1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusu Moskvanın Azərbaycanda hakimiyyətini xilas etmək üçün Bakıya soxulmuşdu. Gecə yarısı fövqəladə vəziyyət elan edilib. Şəhər və ondan kənarda olanlar bundan xəbərsiz idilər. Müxtəlif ölkələrdən gələn jurnalistlər tərəfindən təsvir edilən və lentə alınan həmin gecənin dəhşətləri uzun müddət insanların yaddaşında qaldı. Rəsmi məlumatlara görə, tankların hücumu və silahsız insanlara atəş açmaq əmri nəticəsində azı 147 nəfər həlak olub. 700-dən çox insan yaralandı və şikəst oldu, onların çoxu əlil qaldı. Faciənin qurbanları arasında azyaşlılar və aksiyalarda birbaşa iştirak etməyənlər də olub. Bunun ardınca kütləvi həbslər dalğası baş verib, nəticədə 800-dən çox insan qanunsuz həbs edilib".

Müəllif yazır: "Yanvarın 20-nə keçən gecə Bakıya gətirilən qoşunlar 200-ə yaxın mənzil və evi, 80 avtomobili, o cümlədən təcili yardım maşınlarını dağıdıblar".

Qeyd olunur ki, bu hadisələrin ertəsi günü Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqının qəzəbini və sovet rejiminə etirazını bildirmək üçün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib. Məhz bu faciədən sonra ölkənin müstəqillik hərəkatı dönməz mərhələyə qədəm qoyub.

## Qazaxıstan

"Egemen Qazaxıstan" respublika qəzetində 1990-cı il yanvarın 20-də Azərbaycanda baş vermiş faciəli hadisələrə həsr olunmuş məqalə dərc edilib.

Nəşrdə sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi zamanı həmin faciəli gecənin hadisələri ətraflı işıqlandırılır. Faciə nəticəsində 147 mülki şəxsin həlak olduğu, 700-dən çox insanın yaralandığı bildirilir.

Məqalədə deyilir: "Bu qanlı cinayət insanların azadlıq sevgisini söndürə bilmədi".

Yazıda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin mövqeyinə geniş yer ayrılıb. Qeyd olunub ki, dahi şəxsiyyət Azərbaycanın Moskvadakı nümayəndəliyində tarixi mətbuat konfransındakı çıxışında bu cinayəti qəti şəkildə pisləyib və baş verənlərə siyasi qiymət verilməsini tələb edib.

Qəzet yazıb: "Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində genişmiqyaslı işlərə başlanıldı. Bu dövrdə 20 Yanvar hadisələrindən zərərçəkmiş vətəndaşlara sosial dəstək tədbirləri xeyli gücləndirilib".

Məqalədə qeyd edilib ki, bu siyasəti davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələrinə və 20 Yanvar hadisələri əlillərinə xüsusi diqqət yetirir.

Qazaxıstan nəşri bu faciənin Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsində dönüş nöqtəsi olduğunu vurğulayır. Məqalədə deyilir: "Bu dəhşətli hadisədən neçə il keçsə də, heç bir vətəndaş bu faciəni unutmayacaq".

Həmçinin bildirilir ki, 20 Yanvar Azərbaycan Respublikasında Ümumxalq Hüzn Günüdür və hər il yüz minlərlə insan şəhidlərin xatirəsini ehtiramla yad etmək üçün Şəhidlər xiyabanını ziyarət edir.

## Latın Amerikası

Peru Jurnalistlər İttifaqının sədr müavini Rikardo Sançes Serranın müəllifliyi ilə "Azərbaycanda 20 Yanvar faciəsinin 35-ci ildönümü" sərlövhəli məqalə ittifaqın rəsmi portalında və ölkənin ən məşhur mətbu orqanlarından "La Razon" qəzetində, o cümlədən Kolumbiyanın "Al Press" xəbər agentliyinin internet səhifəsində "Qara Yanvardan zəfərə doğru" başlıqlı məqalə dərc edilib.

Səfirlikdən verilən məlumata görə, məqalələrdə Azərbaycanda müstəqillik hərəkatını yatırmaq üçün sovet qoşunlarının Bakıya daxil olmasından və yüzlərlə dinc insanın ölümünə, yaralanmasına səbəb olan qanlı 20 Yanvar faciəsindən 35 il ötdüyü qeyd olunur, həmçinin ozamankı SSRİ rəhbərliyinin qanlı əməllərinin nəinki Azərbaycan xalqının azadlıq arzusunun qarşısını almağa nail olduğu, əksinə, bu qətliamdan sonra azadlıq ideyalarının daha geniş vüsət aldığı və nəticədə azərbaycanlıların tarixə yenilməz, müzəffər xalq kimi düşdükləri vurğulanır.

Yazılarda həmin dövrdə yaranmış anarxik vəziyyətdən sui-istifadə edən Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycanın əzəli torpaqlarının işğal altına düşməsinə baxmayaraq, ölkəmizin tarixi ədaləti, eləcə də öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyi bildirilir.

Bundan başqa, materiallarda bu gün Azərbaycanın regionun lider ölkəsinə çevrildiyinə, çoxşaxəli və güclü iqtisadiyyata malik olduğuna, Qoşulmama Hərəkatına uğurlu sədrliyinə və COP29 kimi mötəbər beynəlxalq tədbirlərə möhtəşəm evsahibliyi etdiyinə diqqət çəkilir.

Eyni zamanda Ulu Öndər Heydər Əliyevin fərmanı ilə 20 Yanvarın Ümumxalq Hüzn Günü elan edildiyi, Azərbaycan xalqının şəhidlərini milli azadlıq hərəkatının daha da gücləndiyi bu gündə dua və ehtiramla yad etdiyi bildirilir.

## Gürcüstan

Gürcüstanda geniş oxucu auditoriyasına malik "Adjara.PS" portalında 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə bağlı "1990-cı il 20 Yanvar faciəsi öyrənilməli və olduğu kimi gələcək nəsillərə çatdırılmalıdır" adlı məqalə dərc olunub.

Məqalə Azərbaycanın Batumidəki baş konsulluğunun təşəbbüsü və dəstəyi ilə işıq üzü görüb.

Məqalədə deyilir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet İttifaqı Kommunist Partiyası liderinin əmri ilə SSRİ Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizliyi Komitəsinin və Daxili İşlər Nazirliyinin bölmələri paytaxt Bakı şəhəri də daxil olmaqla Azərbaycanın bir sıra rayonlarına yeridildi. Sovet qoşun birləşmələri ağır texnika və müxtəlif növ silahlarla dinc sakinləri qətlə yetiriblər.

Sovet ordusu Bakıda misli görünməmiş qəddarlıqla qırğın həyata keçirib. Gecə yarısı Bakıda fövqəladə vəziyyət elan olunsa da, əhaliyə məlumat verilməyib. Əhali üçün fövqəladə vəziyyət elan etməzdən əvvəl hərbçilər 82 nəfəri vəhşicəsinə qətlə yetirib, 20 nəfəri isə yaralamışdılar. Yanvarın 20-də və fövqəladə vəziyyət elan edildikdən sonrakı günlərdə Bakıda 21 nəfər həlak olub. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda daha 8 nəfər - yanvarın 25-də Neftçalada, 26-da isə Lənkəranda həlak olub.

Bildirilir ki, 20 Yanvar faciəsi bütün dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu. Faciədən sonra sovet imperiyası Azərbaycanda bütün mənəvi və sosial dayaqlarını itirdi, ölkənin müstəqilliyi ideyası xalq işinə çevrildi və ölkənin yeni siyasi tarixində ilk dəfə olaraq Azərbaycan xalqı müxtəlif dövlətlərdə təşkilatlanmaya başladı.

Qeyd olunur ki, faciəyə ilk siyasi qiymət Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 1990-cı il yanvarın 21-də Moskvada verilib.

1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ilk dəfə ali qanunvericilik orqanı - Milli Məclis səviyyəsində hüquqi-siyasi qiymət verilib.

Həmçinin qeyd olunur ki, Azərbaycan xalqı hər il yanvarın 20-də şəhidlərin xatirəsini ehtiramla yad edir. Hər il faciənin ildönümü Şəhidlər xiyabanına izdihamlı ziyarətlərlə müşayiət olunur, burada faciənin rəmzi olan qırmızı qərənfillər vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidlərin məzarları üzərinə gətirilir, onların xatirəsi ehtiramla yad edilir.

Vurğulanıb ki, Azərbaycan xalqının həm də qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılmış 20 Yanvar heç vaxt unudulmamalı, gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır.

*AZƏRTAC*











